**AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
SƏRƏNCAMINDAN ÇIXARIŞ**

**№** 92 16 May **2025-ci il**

**Binəqədi rayonu Novxanı, Goradil və Fatmai Dəniz çimərliklərində əhalinin 2025-ci ildə yay istirahətinin təşkili haqqında**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Bakı Regional Mərkəzindən Binəqədi Rayon İcra Hakimiyyətinə daxil olmuş 13 may 2025-ci il tarixli, 3-18-13/2-567/2025 saylı məktubun icrasını təmin etmək məqsədilə, Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 6.8-ci bəndinə əsaslanaraq

**Q ə r a r a  a l ı r a m:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Bakı Regional Mərkəzindən Binəqədi Rayon İcra Hakimiyyətinə daxil olmuş 13 may 2025-ci il tarixli, 3-18-13/2-567/2025 saylı məktubun icrası ilə əlaqədar Binəqədi rayonu Novxanı, Goradil və Fatmai dəniz çimərliklərində əhalinin 2025-ci ildə istirahətinin təşkili üzrə Tədbirlər Planı təsdiq edilsin; (əlavə olunur)
2. Tədbirlər Planında nəzərdə tutulmuş işlərin icrası məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hacıbaba Babayevə, Aparatın şöbə müdirləri İskəndər Cahangir-zadə, Rauf Həsənov, Azər Kərimov, Vüsalə Eyvazova, Nicat Allahverdiyevə tapşırılsın ki, nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər;
3. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hacıbaba Babayevə həvalə edilsin.

**Binəqədi Rayon İcra Hakimiyyəti
başçısı vəzifəsi səlahiyyətlərini
müvəqqəti icra edən birinci müavin** **Hacıbaba Babayev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR
Sənədlərlə və vətəndaşların
müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Scanned with CamScanner